# Məktəblilərin dünyagörüşlərinin formalaşmasında tur aksiyalar mühüm rol oynayır

Ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş nailiyyətlərinin dərindən öyrənilməsi məqsədilə respublikamızın müxtəlif şəhər və rayonlarında yaşayan gənclərin başqa bölgələrə səyahətlərinin təşkilinə dair Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən 74 şəhər və rayondan 3 mərhələdə 7 istiqamət üzrə ümumilikdə 4 minə yaxın şagird ölkəmizi tanıyaq adı altında maarifləndirici tur aksiyalarda iştirak ediblər.

Noyabr ayının 16-dan 19-dək davam edən növbəti aksiya çərçivəsində Qəbələ məktəblərinin IX-XI sinif şagirdlərindən ibarət qrup Quba-Qusar-Xaçmaz rayonlarında olmuşdur.

Ekskursiyaya başlayan məktəblilər dağ yəhudilərinin yığcam yaşadıqları Qırmızı qəsəbədə, qədim Quba xalçaçılıq müəssisəsində, Quba Soyqırımı Memorial Kompleksində, "Rixos Quba Azerbaijan" otel kompleksində və burada yerləşən Azərbaycan Milli Qolf klubunda olmuşlar. Daha sonra məktəblilər Qusar rayonundakı "Şahdağ" Turizm mərkəzində olmuşlar. Sonra isə rayonun Həzrə kəndindəki «Şeyx Cüneyid» türbəsini ziyarət ediblər. Onlara bildirilib ki, bu türbə XVI əsrdə Azərbaycanda tikilən və Səfəvilərin yadigarı olan abidələrdən biridir. Şeyx Cüneyd XV əsrdə Şirvana Hərbi yürüşü zamanı Şirvanşahlar tərəfindən öldürülüb və Həzrə kəndində dəfn edilib. Məktəblilər Heydər Əliyev Mərkəzində, tarix-diyarşünaslıq muzeyində və rəsm qalereyasında olmuşlar. Dəniz səviyyəsindən 689 metr yüksəklikdə yerləşən Bayraq Meydanından Qusar şəhərini seyr ediblər.



Məktəblilər yolüstü «Qədim Şabran» şəhərinin Şahnəzərli kəndi ərazisində yerləşən qalıqları ilə tanış oldular.

Tur aksiyanın sonuncu günü məktəblilər Xaçmaz rayonunda Heydər Əliyev Mərkəzində, xalça muzeyində, Dövlət rəsm qalereyasında, şəxsiyyətlər muzeyində, tarix-diyarşünaslıq muzeyində oldular.

Tur-aksiya çərçivəsində Abşeron, Qusar, Quba, Sumqayıt, Xaçmaz və Xızıdan olan məktəblilər noyabrın 16-da Qəbələ rayonuna səfər ediblər. İsmayıllı-Qəbələ-Şəki marşrutu üzrə keçirilən tur-aksiyada iştirak edən məktəblilər Qəbələnin tarixi abidələri, turizm obyektləri, mənzərəli guşələri, adət-ənənələri, eləcə də son illər inşa edilən istehsal müəssisələri və sosial obyektləri ilə tanış olublar. Altı rayonu təmsil edən 320 nəfər məktəblinin Qəbələ ilə ilk tanışlığı "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksindən başlayıb. Bölgənin ən çox turist qəbul edən bu obyekti ilə tanışlıq zamanı şagirdlərə kompleksin tikintisinin birinci mərhələsi çərçivəsində dörd kanat xəttinin inşa olunduğu, 10 xizək yolundan 5-də tikinti işlərinin başa çatdığı, turistlərin istirahətinin təşkili üçün hər cür şəraiti olan restoranların açıldığı, bütün dağ-xizək trasının süni qaryağdıran generasiya sistemi ilə təchiz edildiyi və gün ərzində kompleksdə 3 min nəfərə xidmət göstərilməsinin mümkünlüyü barədə məlumat verilib. Sonra şagirdlər rayon tarix-diyarşünaslıq muzeyində 900 il Qafqaz Albaniyasının paytaxtı olmuş qədim Qəbələ şəhərinin tarixi, mədəniyyəti və etnoqrafiyası haqqında məlumat əldə ediblər.



Onlara bildirilib ki, muzeyin əsas fondunda Qəbələnin 2500 illik tarixini əks etdirən 12 mindən çox tarixi və elmi əhəmiyyətə malik eksponat mühafizə olunur. Heydər Əliyev Mərkəzini ziyarət edən məktəblilər burada ulu öndərin həyatını və siyasi fəaliyyətini əks etdirən fotoşəkillər və sənədlərlə tanış olublar. "Beltmann" piano fabrikində istehsal prosesi ilə yaxından tanış olan tur-aksiyanın iştirakçılarının diqqətinə çatdırılıb ki, müəssisədə dünyada məşhur olan "Beltmann" markalı pianolar istehsal olunur. Heydər Əliyev adına Konqres Mərkəzi ilə tanışlıq zamanı məlumat verilib ki, 1200 yerlik mərkəz üç mərtəbədən ibarətdir. Birinci mərtəbədə zallar, 350 yerlik restoran və inzibati otaqlar yerləşir. Çoxfunksiyalı konfrans zalı isə ikinci mərtəbədədir. Konfrans zalı qısa müddətə başqa məqsədlər—konsert, iclas üçün kresloların aşağı enməsi ilə müstəvi halına keçə bilir. Daha sonra Nic qəsəbəsinə səfər edən şagirdlər buradakı "Çotari" Alban kilsəsinə böyük maraqla baxıblar. Məlumat verilib ki, kilsə tarixi baxımdan ən qədim və əhəmiyyətli abidələrdən biridir. Nic qəsəbəsi tolerantlığın kiçik bir modeli hesab edilir. Həmçinin şagirdlər Çuxur Qəbələ kəndində qədim Qəbələ şəhərinin xarabalıqları və ərazidə aparılan arxeoloji qazıntıların nəticələri ilə tanış olublar. Şagirdlər Qəbələyə səfərlərinin sonunda beşulduzlu "Qafqaz Riverside", "Qafqaz Yeddi gözəl" otelləri, "Qəbələnd" İstirahət və Əyləncə Mərkəzi, rayonda yaradılan müasir turizm infrastrukturu, bölgənin füsunkar təbiəti, eləcə də Nohur gölü ilə tanış olub, istirahət edib, əylənib və xatirə şəkilləri çəkdiriblər. Sonda məktəblilər səfər zamanı qədim və müasir Qəbələ şəhərini heyranlıqla seyr etdiklərini bildirib, xoş təəssüratlarla Şəki şəhərinə yola düşüblər.

**«Qəbələ».**

---

*QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2015-ci İLİN DEKABR AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBULLARIN VƏ GÖRÜŞLƏRİN QRAFİKİ*

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Yengicə kəndi | 01.12.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Solquca kəndi | 08.12.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Bılıx kəndi | 15.12.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Sirt Yengicə kəndi | 22.12.2015 | Bələdiyyə idarəsi, saat $11^{00}$ |
| Böyük Əmili kəndi | 29.12.2015 | Kənd məktəbi, saat $15^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə, mədəniyyət və turizm şöbələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

# Dəyirmi masa

Noyabrın 16-da Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində 17 noyabr Milli Dirçəliş Günü münasibəti ilə dəyirmi masa təşkil olunmuşdur. Muzeyin direktoru Xalis Məmmədov 1990-çı illərdə baş vermiş tarixi siyasi hadisələr haqqında geniş mövzuda çıxış etmişdir. Haqqını, müstəqilliyini, azadlığını tələb edən Azərbaycan xalqının 17 noyabr günündə yeni bir tarix yazdığı, milli iftixarla anılan bu gün hər il olduğu kimi bu il də muzeydə xüsusi təntənə ilə qeyd olundu.

Muzeydə həmin illəri xatırladan tarixi, rəsmi materiallardan, fotolardan ibarət sərgi də təşkil olunmuşdur.

**«Qəbələ».**

# İşgüzar seminar

Hökumətlərarası razılaşmaya əsasən Almaniya Federativ Respublikasının Əməkdaşlıq və İnkişaf Nazirliyinin sifarişi ilə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti 2014-cü ildən Cənubi Qafqazda Özəl Sektorun İnkişaf Proqramının ikinci mərhələsini həyata keçirir.

18—19 noyabr 2015-ci il tarixdə Turizm və Otelçilik üzrə peşə tədris mərkəzində "Məşğulluq və peşə təhsili sahəsində sosial tərəfdaşlığın gücləndirilməsi" mövzusunda seminar keçirilmişdir.

Seminarı layihə rəhbəri Əlipaşa Qaybaliyev açaraq iştirakçıları salamlamış, tədbirin keçirilməsi, layihənin məqsədi barədə ətraflı məlumat vermişdir.

Seminarda "Azərbaycan Respublikasında məşğulluq və peşə təhsili sahəsində dövlət siyasəti", "Sosial tərəfdaşlıq və sosial dialoq anlayışı", "Məşğulluq və peşə təhsili sahəsində dövlət-özəl əməkdaşlığı", «Məşğulluğa kömək göstərən Əlaqələndirmə Komitəsinin vəzifə və səlahiyyətləri: «Fəaliyyət planının» hazırlanması mərhələləri, hazırlıq mərhələsi, «Məqsədlərin və planın əhatə dairəsinin müəyyən edilməsi», «Planlaşdırma: işlərin, müddətlərin, resursların və s. müəyyənləşdirilməsi», «Fəaliyyət planının icrası və qiymətləndirilməsi», mövzularında təlimçilər İlqar Əsədov və Sədaqət Qəmbərova iştirakçıları məlumatlandırdılar.



İki gün davam edən tədbirdə turizm və otelçilik üzrə peşə tədris mərkəzinin direktoru Eyvaz Kazımov, RİH-nin məsul işçisi Fəxrəddin Bağırov, rayon məşğulluq mərkəzinin direktoru Elxan Səlimov, DİİXİ rayon komitəsinin sədri Fərman Hacıyev, peşə məktəbinin direktoru Azad Məmmədov və başqaları məşğulluğa kömək göstərən əlaqələndirmə komitəsinin fəaliyyəti və digər məsələlər barədə öz fikirlərini bildirdilər.

**Oqtay MƏMMƏDOV.**
**Foto İ. Vəlizadənindir.**